# TEYMUROV RİZVAN RƏHMAN OĞLU



Rizvan Teymurov 16 aprel 1967-ci ildə Şuşa şəhərinin Quşçular kəndində anadan olmuşdur. 1984-cü ildə doğma kəndlərində orta məktəbi bitirmişdir. 1985-ci ildə ordu sıralarına çağırılmışdır. Əsgəri xidmətini Omsk şəhərində başa vurduqdan sonra vətənə qayıtmışdır. Bir müddət doğma rayonunda iaşə xidməti sahəsində çalışmış, 1987-ci ildə Rusiyanın Arxangelsk vilayətinə getmişdir. 1990-cı ildə yenidən vətənə qayıtmışdır. Şuşa rayon DİŞ-nin nəzdində Xüsusi Təyinatlı Polis dəstəsinə yazılır. Bu dəstə Qaradağlı, Sırxavənd, Umudlu, Meşəli, Cəmilli kəndlərində, habelə Xankəndində erməni yaraqlılarının zərərsizləşdirilməsində və tərksilah edilməsində qəhrəmanlıq nümunəsi göstərmişdir. 1991-ci il dekabrın 9-da Xankəndi və Kərkicahan ətrafında gedən qanlı döyüşdə qəhrəmancasına həlak olmuşdur. Şuşa şəhərinin Quşçular kəndində dəfn olunmuşdur. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Teymurov Rizvan Rəhman oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Bakının Nizami rayonundakı küçələrdən biri onun adını daşıyır.